## *SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ*

**UOT:781.**

# ARİF MİRZƏYEVİN YARADICILIĞININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Abbasova Svetlana Cəlal qızı***
***Gəncə Dövlət Universiteti***
***Saida_nika@yahoo.com***

**Xülasə:** *İnsan varlığının ruhuna hakim olmaq sənəti Arif Mirzəyevə tabe oldu. Məqalədə Azərbaycanın Əməkdar artisti (2011), Azərbaycan və Rusiyanın Bəstəkarlar İttifaqlarının, Leypsiqdəki İ.S.Bax adına Beynəlxalq Musiqi Cəmiyyətinin və Alman-Azərbaycan Forumunun üzvü, bəstəkar, pianoçu Arif Mirzəyevin yaradıcılığı araşdırılır. Arif Mirzəyevin yaradıcılığı həm miqyasca çox geniş, həm də novatorluğu etibarilə əhəmiyyətlidir. Bəstəkar ölkəmizdə müasir musiqinin polistilistikası (çoxüslubluq) üzrə yeganə bəstəkardır. İ.S.Baxın musiqisini və üslubunu dərindən bilən bəstəkar İ.S.Baxın musiqisinin təbliğatçısıdır.*

**Açar sözlər:** Arif Mirzəyev, bəstəkar, musiqi, simfoniya, yaradıcılıq
**Ключевые слова:** Ариф Мирзоев, композитор, музыка, симфония, творчество
**Key words:** Arif Mirzoev, composer, music, simfoniya, creativity

Arif Abdulla oğlu Mirzəyev 10 aprel 1944-cü ildə Bakıda dünyaya gəlib. Bəstəkarlıq sənətinə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (1965) görkəmli bəstəkar Qara Qarayevin sinfində yiyələnib. P.İ.Çaykovski adına Moskva Konservatoriyasında orqan sənətinin nəzəriyyəsi və tarixinə dair staj keçib. Yaradıcılığını pedaqoji fəaliyyətlə birləşdirib.

Arif Mirzəyevin sözlərinə görə o, özünə söz vermişdir ki, mütləq dahi alman bəstəkarı İ.S.Baxın məzarını ziyarət edəcək. Elə bu səbəbdən Almaniyaya yollandı, sonra isə orada həmişəlik qaldı. Amma doğma Bakıya da tez-tez gəlir.

Araşdırmalar göstərir ki, orqan musiqisinə, daha dəqiq Bax musiqisinə olan sevgisi onun Almaniyaya köçməsinə səbəb oldu. Orada polifoniya kimi ciddi musiqi texnologiyası ilə məşğul olmağa qərar verdi.

Qeyd edək ki, son onillikdə Azərbaycan orqan və dini klassik musiqisinin banisi Arif Mirzəyevin əsərləri dünya musiqi mədəniyyəti tarixinə yeni səhifə yazmışdır.

Konservatoriyada oxuduğu illərdə “Sovetski kompozitor” və Muzıka” mərkəzi nəşrləri ilə əməkdaşlıq edib, bir çox əsərlərini dərc etdirib. Onun sözlərinə görə, dəqiq klassik musiqi, yeni üsullar, Qərb polifoniyası və parlaq Azərbaycan musiqisi Moskvanın bəstəkar-professorlarından ibarət olan komissiyanı heyrətləndirib.

Bəstəkara şöhrət gətirən daha bir əsəri 1984-cü ildə yaratdığı məşhur “İ.S.Baxın xatirəsinə orqan simfoniyası” olub. Dahi alman bəstəkarının 300 illiyinə “ornamental-muğam, xoral və polifonik variasiyalar” formasında bəstələnmiş bu simfoniya son 26 il ərzində dünyanın müxtəlif ölkələrində rekord sayda səsləndirilib.

Beləliklə, bu bəstəkara iki monumental əsər yaratmağa imkan vermişdir- Şərqdə ilk dəfə “İ.S.Baxın xatirəsinə orqan simfoniyası” (1984) və dünya musiqi ədəbiyyatında analoqu olmayan 1990-cı ildə Bakı şəhərində faciəli yanvar hadisələrinin qurbanlarına həsr olunmuş xor, orqan, orkestr, kamança və xanəndə üçün yazılmış islam matəm mərsiyələri olan “Yanvar mərsiyələri” (1992). Almaniyada bu iki əsər əsl musiqi nailiyyəti hesab olunmuş, onların müəllifi bəstəkar Arif Mirzəyev isə “İohann Sebastyan Bax Xatirə Gümüş Medalı”na layiq görülmüşdür. Bu medalı ona dahi bəstəkarın vətəni Ayzenax şəhərində “Bax-Hauz”un direktoru, Tyuring Bax Musiqi Cəmiyyətinin Prezidenti doktor Klaus Ofner təqdim etmişdir.

"Sebastyan Bax Medalı" beynəlxalq statusa malikdir. İ.Bax ənənələrini zənginləşdirən və yaradıcılığını təbliğ edən görkəmli bəstəkar və musiqiçilərə, alman klassik polifoniyasının dahisinə həsr olunmuş əsərlərdəki musiqi nailiyyətlərinə görə nadir hədiyyə kimi təqdim edilmişdir. Medal cəmi 1685 ədəd buraxılmışdır (rəqəm İ.S.Baxın anadan olduğu il göstərilmişdir).

Medalın şəhadətnaməsində "0011" rəqəmi göstərilmişdir. Arif Mirzəyev dünyada belə qiymətli hədiyyə almış on birinci musiqiçidir. Bu Neorenessans Şərq və Qərb meditativ və dini musiqinin polistilistikasıdır. Polistilistika onun bütün bəstələrində aydın görünür.

Bəstəkarın "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" (1984) 20 il ərzində dünyanın müxtəlif ölkələrində səsləndirilib. 1986-cı ildə "Orqan simfoniyası"nın Kiyev şəhərinin Orqan zalında premyerasından sonra Ukraynanın orqan məktəbinin banisi professor Arseni Kotlyarevski demişdir: "Bax musiqisi və Azərbaycan musiqisi onun qədim muğamı, iki əsrdən artıqdır  bir müddətdə  bir-birinə doğru addımlamışdır.

İki böyük musiqi mədəniyyətinin bu görüşü nəhayət baş verdi. Və onun baş verməsinə nadir istedadı və böyük gələcəyi olan bəstəkar kömək etdi. Bu bütün Bax musiqisini, klassik polifoniyasını dərin biliyi ilə məni və bütün dinləyiciləri valeh etmiş azərbaycanlı Arif Mirzəyevdir". Kiyevdəki premyeradan sonra Baxın özünün bir qayda olaraq bütün konsertlərinin birinci hissəsində səslənən dahiyanə hədsiz rəğbətə dözərək "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" konsert zallarında zəfər yürüşünə başlamışdır. Moskvada, Tallində, Minskdə, Leninqradda, Londonda və nəhayət Budapeştdə bütün konsert zallarında səslənən bəstəkarın "Baxın xatirəsinə Şərq orqan simfoniyası"nı  dinləyicilər ayaq üstə alqışlayırdılar. "Azərbaycanlı Sebastyan Bax", "Şərq polifonik musiqisinin nəhəng ustası" – azərbaycanlı bəstəkarın ünvanına belə epitetlər səslənmişdir.

Qeyd edək ki, Arif Mirzəyev musiqi polistilistikasında yeni çoxüslubluluq cərəyanının (istiqamətin) banisidir.

"İ.S.Bax dahi alman bəstəkarı, orqan ifaçısıdır. Onun yaradıcılığı qırılmaz surətdə alman xalqının qədim və zəngin mədəniyyətilə bağlıdır. Lakin Baxın yaradıcılığı təkcə Almanya üçün deyil, ümumdünya miqyasda müstəsna əhəmiyyətə malikdir" [2. s. 4].

A.Mirzəyev orqan alətində virtuoz ifaçı kimi şöhrət tapmışdır. O, orqan yaradıcılığında milli ənənələrə əsaslanaraq zirvələrə ucalmışdır.

A.Mirzəyevin əsərləri sərbəst polifonik üslubun zirvəsidir. Bəstəkar musiqidə yeni istiqamətin banisidir.

Mürəkkəb polifonik üsulların ispan motivlərinin və bayramsayağı lirik rəqs ritmləri ilə kəsişdiyi "24 fortepiano üçün prelüd və fuqa" (1966), skripka və fortepiano üçün  (sonata anasına həsr edilib), "Leypsiq" (1969),  solo orqan üçün Xocalı uşaqlarına "Layla" (1996), solo orqan üçün "Şahzadə Dianaya sarabanda" (1997).  Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin əziz xatirəsinə "Dahi Prezidentin ruhuna kədərli dua" əsəri (2004), simfonik orkestr üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 50 illik yubileyinə həsr olunmuş "Təntənəli Fəxri Himn" (2011), solo orqan üçün Nizami Gəncəviyə həsr olunmuş "Adajio-875" (2016), "Üzeyir Hacıbəyli" üçüncü orqan simfoniyası (2008), simli orkestr üçün üçüncü kamera simfoniyası (2008).

2008-ci ilin oktyabr ayında A.Mirzəyev Azərbaycanda alman mədəniyyəti ilini açaraq Bakıda solo orqan konserti verib.

Beləliklə, bəstəkar böyük yaradıcılıq coşğunluğu vəziyyətindədir. İstedadlı həmyerlimiz bəstəkar Arif Mirzəyevin Almaniyada belə böyük bir ehtimal tanınması və onun İ.S.Bax adına Beynəlxalq musiqi cəmiyyətinin fəxri üzvü qəbul edilməsi Azərbaycan mədəniyyətinin nüfuzunu qaldırmışdır.

1994-cü il 4 iyun Bakıda Kamera Musiqi Evində Alman kirxasında Arif Mirzəyevin 50 illik yubileyi qeyd edildi. Xoşbəxtlikdən mən də orada iştirak edirdim. Demək olar ki, Azərbaycanın bütün bəstəkarları və musiqiçiləri orada idilər.

Arif Mirzəyev səhnəyə qalxıb zalda olanları salamladı və minnətdarlığını bildirdi. O dedi: "Ona baxmayaraq ki, mən Almanyada yaşayıram, Azərbaycan mənim döyünən ürəyimdir. Axır nəfəsimə kimi millətimə, Azərbaycan mədəniyyətinə xidmət edəcəyəm". Sonra Arif Mirzəyevin əsərlərindən ibarət möhtəşəm konsert oldu. Konsertdə bəstəkarın fortepiano üçün "Prelüdləri"ni Fərhad Bədəlbəyli, skripka üçün "Leypsiq" sonatasını (anasına həsr edib) Rəsul Abbasov ifa etdilər.

Mən konsertdən sonra Arif Mirzəyevə yaxınlaşıb öz minnətdarlığımı bildirdim. Onunla söhbət əsnasında gördüm ki o necə sadə, təvazökar insandır. A.Mirzəyev mənə avroqrof verdi.

Professor S.Qurbanəliyevanın "Şəxsiyyət və musiqi" adlı kitabında qeyd edir: "Məktəblilərin musiqi tərbiyə işində musiqidən nə qədər mütəşəkkil, müntəzəm, səmərəli və fəal surətdə istifadə olunsa şəxsiyyətin formalaşması prosesi də bir o orjinal üslubunu yarada bilmişdir.

Məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafında Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı dünya musiqi mədəniyyətinin görkəmli bəstəkarları haqqında məlumatların verilməsi, onların əsərlərindən nümunələrin dinlənilməsi olduqca vacibdir.

Musiqi dərsində musiqi zamanı əsərlərin emosional qavranılmasına diqqət verilməlidir.

Məktəblilər dinlənilən musiqi əsərlərinin mənəvi-estetik məzmununu şüurlu surətdə qavramalıdır [1. s. 45].

***Ədəbiyyat***


1. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, 2010, 160 s.
2. Həsənova S. Musiqi tarixindən mühazirələr. Bakı, 2008, 93 s.
3. Qasımova S. Azərbaycan musiqi ədəbiyyatı. Bakı, 2009, 245 s.
4. Zöhrabov R. Bəstəkarlarımız haqqında söz. Bakı, 1995, 83 s.

**Rus dilində:**

5. Друскин М. История зарубежных музыки. Москва, 1976, 576 s.

Saytoqrafiya

6. www.az. vikipediya.orq.
7. http: // kayzen.az. /blog/ musiqi
8. http: // mk. Musiqi – dunya.az


## ОСНОВНЫЕ ЧЕРТИ ТВОРЧЕСТВА АРИФА МИРЗОЕВА

***Аббасова Светлана Джалал кызы***

***Резюме***

Искусство овладения духом человеческого бытия было подвластно Арифу Мирзаеву. В статье рассматривается творчество заслуженного деятеля искусств Азербайджана (2011) Арифа Мирзоева, члена Союзов композиторов Азербайджана и России, Международного музыкального общества имени И. С. Баха в Лейпциге и Немецко-азербайджанского форума, композитора, пианиста. Творчество Арифа Мирзоева и очень масштабно, и значительно по новаторству. Композитор является единственным композитором полистилистики (многогранности) современной музыки в нашей стране. Композитор, глубоко знающий музыку и стиль И. С. Баха, является пропагандистом музыки И. С. Баха.

## THE MAİN PECULİARİTİES OF THE CREATİVİ WORK OF ARİF MİRZOEV

***Abbasova Svetlana Calal***

***Summary***

The art of mastering the spirit of human existence was subject to Arif Mirzaev. The article deals with the work of the Honored Art Worker of Azerbaijan (2011) Arif Mirzoev, a member of the Unions of Composers of Azerbaijan and Russia, the International Musical Society named after J.S. Bach in Leipzig and the German-Azerbaijani Forum, composer, pianist. The work of Arif Mirzoev is both very large-scale and significant in terms of innovation. The composer is the only composer of polystylistics (versatility) of modern music in our country. The composer, who deeply knows the music and style of J. S. Bach, is a promoter of the music of J. S. Bach.

***Rəyçi: müəl.Məhərrəmova S.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 2 saylı protokolu***
***Daxil olduğu tarix 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## "ÇAHARGAH" MUĞAMININ MUSİQİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

***Əliyev Əli Sahib oğlu***
***Gəncə Dövlət Universiteti***
***polderak@bk.ru***

**Xülasə:** *Məqalə "Çahargah" muğam dəstgahının musiqi-nəzəri, estetik xüsusiyyətlərinin, ifaçılıq məsələlərinin işıqlandırılmasına həsr olunub.*

**Açar sözlər:** Azərbaycan, muğam, məqam, Çahargah, ifaçı, bəstəkar
**Ключевые слова:** Азербайджан, мугам, макам, Джахаргях, исполнитель, композитор
**Key words:** Azerbaijan, muğam, maqam, Chahargah, performer, composer

Dünyada unikal milli musiqi kimi bəşəriyyətin mədəni irsinin qızıl fonduna daxil olan Azərbaycan muğamı əsrlərlə cilallanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır.

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyinin bütün dövrlərində həyata keçirdiyi mədəniyyət və təhsil siyasətində milli musiqi irsinə, o cümlədən, muğamlara, onu yaşadan və öyrədən sənətkarlara dərin ehtiram və qayğı ilə yanaşmışdır.

Ulu Öndərin milli mədəniyyətin qorunması və inkişafına, tədqiqi və təbliğinə göstərdiyi diqqət və qayğılar Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Muğam İrs", "Muğam dəstgah", "Muğam ensiklopediyası", "Muğam internet", "Muğam antologiyası", "Beynəlxalq Muğam mərkəzi" layihələri "Muğam aləmi" beynəlxalq muğam festivallarının və elmi simpoziumlarının,